HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 510.2-ci və 510.3-cü maddələrinin

# ELMİ-PRAKTİKİ KOMMENTARİYASI

**Bakı – 2026**

**MÜƏLLİFLƏR:**

**Samir Mahmudov** HEQT Mərkəzinin İcraçı direktoru

**Kamalə Paşayeva** HEQT Mərkəzinin İcraçı direktorunun müavini

**Nurani Rüstəmli** HEQT Mərkəzinin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin müdiri

**Ülvi Qasımzadə** HEQT Mərkəzinin Qanunvericilik təşəbbüsləri və monitorinq şöbəsinin baş mütəxəssisi

*Bu vəsaitin hazırlanması zamanı göstərilmiş təşkilati və elmi-metodoloji dəstəyə görə "Hüquq və İnsan Haqları İnstitutu" PHŞ-nin kollektivinə xüsusi təşəkkür bildirilir!*

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 510.2-ci və 510.3-cü maddələrinin elmi-praktiki kommentariyası.**

Bakı, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, 2026. - 15 s.

Bu vəsait Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 510.2-ci, 510.3-cü maddələrinin və 510-cu maddəsinin "Qeyd" hissəsinin hər bir normasının sistemli elmi-praktiki şərhini ehtiva edir. Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tərəfindən hazırlanmış bu kommentariya, İnzibati Xətalar Məcəlləsinin qeyd olunan maddələrinin nəzəri və praktiki baxımdan dərindən dərk edilməsinə, eyni zamanda düzgün, ardıcıl və səmərəli tətbiqinə xidmət edən elmi-metodoloji mənbədir.

Vəsaitdə şərh edilən normaların məqsədi, predmeti, tətbiq dairəsi və şərtləri, əsas anlayış və terminlərin izahı açıqlanmış, həmçinin hüquq tətbiqetmə təcrübəsində yarana biləcək problemlərə və ziddiyyətli məqamlara diqqət yönəltməklə onların aradan qaldırılması üsulları izah edilmişdir.

Vəsait müvafiq inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər) və məhkəmələr, vəkillər və digər praktiki hüquqşunaslar, müvafiq sahə üzrə elmi araşdırmalar aparan tədqiqatçılar, hüquqşünas alimlər, ali məktəblərin hüquq fakültələrinin tələbələri, eləcə də müvafiq sahə üzrə biliklərə yiyələnmək istəyən digər şəxslər üçün faydalıdır.

***© Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, 2026***

**Maddə 510. Xırda xuliqanlıq**

*** * ***

**510.2. İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə görə –**

**beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda bir ayadək müddətə inzibati həbs tətbiq olunur.**

**510.3. Bu Məcəllənin 510.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –**

**min manatdan iki min manatadək məbləğdə cərimə edilir, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.**

***Qeyd:* Bu Məcəllənin 510.2-ci və 510.3-cü maddələri həmin maddələrdə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.**

HEQT
HÜQUQİ EKSPERTİZA VƏ QANUNVERİCİLİK TƏŞƏBBÜSLƏRİ MƏRKƏZİ

***<u>510.2-ci maddənin şərhi</u>***

**1. Maddənin tarixçəsi**

1.1. Şərh olunan maddə İnzibati Xətalar Məcəlləsinə (bundan sonra – **İXM**) 30 dekabr 2025-ci il tarixli 334-VIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə əlavə edilmişdir.[1] Həmin maddənin İXM-ə əlavə edilməsi eyni tarixdə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişiklikdən irəli gəlir.

1.2. Belə ki, sözügedən Qanuna edilmiş dəyişiklik nəticəsində informasiya ehtiyatında (informasiya-telekommunikasiya şəbəkəsində) yayılması qadağan edilən informasiyanın siyahısı genişləndirilərək həmin siyahıya aşağıdakı məlumatlar daxil edilmişdir:

> "kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatlar;". (maddə 13-2.3.6-1)[2]

1.3. Qanunun qeyd olunan norması ilə birbaşa əlaqəli olan hal-hazırda şərh olunan İXM-nin 510.2-ci maddəsi internet informasiya ehtiyatında yayılması qadağan edilən müvafiq məlumatları yayan şəxslərin inzibati məsuliyyət məsələsini tənzimləməklə, belə məlumatların yayılmasının qarşısının alınması istiqamətində səmərəli mübarizə aparılmasını, o cümlədən müvafiq məsələ ilə bağlı görülən tədbirlərin effektivliyinin artırılmasını təmin edir.

**2. Şərh olunan maddənin qanuna daxil edilməsinin məqsədləri**

2.1. Bununla bağlı qeyd edilməlidir ki, hazırda ölkəmizdə geniş istifadə olunan bir sıra sosial şəbəkələrdə (TikTok, Instagram və s.) qeyri-etik paylaşımların və çağırışların çoxalması müşahidə olunur. Məsələ ilə əlaqədar **Azərbaycan Respublikası Milli Məclisində aparılan müzakirələr** zamanı belə paylaşım və çağırışların milli-mənəvi dəyərlərin deqradasiyasına, ictimai mənəviyyatın, cəmiyyətdə qəbul edilmiş əxlaqi dəyərlərin, etik normaların və davranış qaydalarının kobud şəkildə pozulmasına səbəb olduğu, xüsusilə yeniyetmə və gənclərin davranış modellərinə mənfi təsir göstərdiyi qeyd olunmuşdur.[3]

---

[1] 30 dekabr 2025-ci il tarixli 334 – VIIQD nömrəli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1.20-ci maddə). https://e-qanun.az/framework/61238

[2] 30 dekabr 2025-ci il tarixli 334 – VIIQD nömrəli "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/61200.

[3] *Bax:* Azərbaycan Respublikası Milli Məclisi, *İclasların protokolları və stenoqramları*, 7-ci çağırış, 5-ci sessiya, 54-cü cild, 19 dekabr 2025-ci il, s. 68-69 və s.78, https://meclis.gov.az//documents/19.12.2025.pdf.

Hesab edilmişdir ki, bu mənfi təsirlər Azərbaycan cəmiyyətinə xas olmayan qeyri-ənənəvi cinsi maraqların təbliğinə, xüsusi ilə yeniyetmə qızları öz bədən hissələrini əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərməsinə həvəsləndirir.[4]

2.2. Şərh olunan maddə qeyd olunan halların, o cümlədən gənclərin davranış modellərinin deformasiyasının qarşısını almaq, milli kimliyimizi və cəmiyyətimizin dayanıqlığını, milli-mənəvi köklərə və sağlam dəyərlərə söykənən ailə institutunu sosial şəbəkələrin mənfi təsirlərindən qorumaq, ictimai davranış normalarının möhkəmləndirilməsinə və sağlam mənəvi mühitin qorunmasına xidmət etmək, habelə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə əxlaqsız ifadələr səsləndirən və cəmiyyətə açıqca hörmətsizlik edən şəxsləri cəzalandırmaqla onları qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək və yenidən belə hərəkətlərə yol vermələrinin qarşısını almaq **məqsədi** daşıyır.[5]

## 3. İnzibati xəta tərkibinin əlamətləri

3.1. İXM-nin 3-cü maddəsinə əsasən yalnız həmin Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli hesab edilən və *inzibati xəta tərkibinin bütün digər əlamətlərini* (yəni, obyekt, obyektiv cəhət, subyekt, subyektiv cəhət) daşıyan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur. Odur ki, aşağıda İXM-nin 510.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın tərkibinin əlamətlərini ayrı-ayrılıqda təhlil etməyi məqsədəuyğun hesab edirik.

*Obyekt*

3.2. İnzibati xətanın obyektini İXM-nin normaları ilə qorunan və törədilən əməllə qəsd edilən ictimai münasibətlər təşkil edir. İXM-nin 38-ci fəsli ilə qorunan ictimai münasibətlər, habelə şərh olunan maddədə nəzərdə tutulmuş əməlin xarakteri nəzərə alınaraq, İXM-nin 510.2-ci maddəsi üzrə inzibati xətanın obyektini **ictimai mənəviyyat** təşkil etdiyi hesab edilir.

*Obyektiv cəhət*

3.3. Şərh olunan maddənin obyektiv cəhəti internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsində ifadə olunur.

3.4. İXM-nin 510.2-ci maddəsində ictimai mənəviyyatı təhqir edən və cəmiyyətə açıqca hörmətsizlik ifadə edən **cəmi 3 hərəkət** müəyyən edilərək *məhdud siyahı* şəklində sadalanmışdır:

[4] *Ibid.*
[5] *Ibid.*

(i) əxlaqsız ifadələrin səsləndirilməsi;

(ii) əxlaqsız məzmun təəssüratı yaradan jestlərin edilməsi;

(iii) insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada nümayiş etdirilməsi.

3.5. ***Əxlaqsız ifadələrin səsləndirilməsi.*** Bununla bağlı ilk növbədə "əxlaq" anlayışının mənasını aydınlaşdırmağı məqsədəuyğun hesab edirik. Bununla əlaqədar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – **Avropa Məhkəməsi**) presedent hüququ araşdırılmışdır. Bu hüquqda ifadə azadlığı üzərində məhdudiyyətlərin qanuni məqsədləri ilə bağlı qeyd edilir ki, İnsan Hüquqları üzrə Avropa Konvensiyanın (bundan sonra – **Avropa Konvensiyası**) 10(2)-ci maddəsində sadalanan xüsusi maraqlar "əxlaq normalarının qorunması ilə" bağlı dayandırıla bilər.[6] Avropa Məhkəməsi qeyd edir ki, üzv dövlətlərin daxili hüququnda "əxlaq" anlayışına dair vahid konsepsiya müəyyən etmək mümkün deyil. **Hər bir ölkənin əxlaq tələblərinə yanaşması fərqli ola bilər** və bu yanaşmalar zaman keçdikcə (xüsusilə də indiki zamanda bu sahədə baxışların sürətli və dərin dəyişikliyə məruz qaldığı nəzərə alınaraq) və məkandan-məkana dəyişir.[7] Göründüyü kimi Avropa Məhkəməsi "əxlaq"ın nə olmasının müəyyənləşdirilməsinə münasibətdə dövlətlərin qiymətləndirmə sərbəstliyinə malik olduğu mövqeyindədir. Bundan başqa *Müller və digərləri İsveçrəyə qarşı* məhkəmə işində də Məhkəmə nəyin əxlaqi baxımdan münasib olmasına dair Avropa ölkələri arasında vahid anlayışın mövcud olmadığını vurğulamışdır.[8]

3.6. Bu mövqedən çıxış edərək düşünürük ki, "əxlaq"ın, o cümlədən "əxlaqsızlığın" nə olduğuna milli (daxili) səviyyədə qiymət verilməlidir. Qeyd edilməlidir ki, "**əxlaq**", o cümlədən "**əxlaqsız**" anlayışlarının nəyi ehtiva etdiyi qanunvericiliyimizdə izah edilmir. "Azərbaycan dilinin izahlı lüğəti"ndə (bundan sonra – **İzahlı Lüğət**) "əxlaq" belə izah olunur[9]:

1. İnsanın mənəvi keyfiyyətini, əhval ruhiyyəsini müəyyən edən etik normalar; mənəviyyat.
2. İnsanın yaşadığı cəmiyyət və onu təşkil edən üzvləri ilə rəftarı və özünü aparma qaydası.

3.7. İzahlı Lüğətdə "əxlaqsız" anlayışına verilən izah isə belədir:

1. Əxlaqı pis, mənəvi cəhətdən pozğun.
2. Əxlaq normalarına zidd; ədəbsiz, tərbiyəsiz.[10]

---

[6] Konvensiyanın 10-cu maddəsinin şərhi və mahiyyətinin başa düşülməsi üçün əyani vəsait; Tobi Mendel, İcraçı Direktor, Hüquq və Demokratiya Mərkəzi, 2012, s.50.
[7] Handyside Birləşmiş Krallığa qarşı iş üzrə Qərar *(Handyside v.United Kingdom)* , § 48. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-57499%22]}
[8] Müller və digərləri İsveçrəyə qarşı iş üzrə Qərar *(Müller and Others v. Switzerland),* § 36.
[9] Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2006, səh.75.
[10] *Ibid.*

3.8. **Hüquq doktrinasında** “**əxlaq**” ictimai münasibətlərin tənzimləyicisi kimi çıxış etməklə, hər hansı hadisəyə “xeyir”, “şər”, “ədalətli”, “ədalətsiz”, “vicdanlı”, “insaflı”, “utanmalı”, “tərifəlayiq” və s. kateqoriyaları baxımından verilən qiymətdir. Bu kimi kateqoriyalar cəmiyyət tərəfindən insanların hərəkətlərini qiymətləndirmək üçün əsas meyar qismində istifadə olunur.[11]

3.9. Qeyd edilənlərdən, o cümlədən “əxlaq” və “əxlaqsız” anlayışlarına İzahlı Lüğətdə verilən izahlardan çıxış edərək bu qənaətə gəlmək olar ki, **əxlaqsız ifadələrin səsləndirilməsi** dedikdə ictimai mənəviyyatı təhqir edən və cəmiyyətə açıqca hörmətsizlik ifadə edən tərzdə cəmiyyət tərəfindən qəbul olunmuş əxlaq normalarını pozan, cəmiyyətin qəbul etdiyi mənəvi-əxlaqi dəyərləri alçaldan, ədəbsiz, tərbiyəsiz, nalayiq və ya söyüş məzmunlu söz və ya ifadələrin işlədilməsi başa düşülür.

3.10. Nəzərə alınmalıdır ki, **əxlaq normalarının** rəsmi yazılı standartı mövcud deyil. Bu cür normalar milli hüquq doktrinasında aşağıdakı kimi izah edilir:

> Əxlaq normalarının məzmununu insanların, cəmiyyətin “xeyir”, “şər”, “ədalətli”, “ədalətsizlik” haqqında baxışları, təsəvvürləri, əqidələri təşkil etməklə, eyni zamanda onlar ədalətli, insanpərvər olmaq kimi tələblərin də ifadəsidir *(Məsumə Məlikova, Hüquq nəzəriyyəsi. Dərslik., “Elm və təhsil”, 2023, s. 71)*.

> Əxlaq normaları – cəmiyyətdə yaxşı və pis, doğru və yanlış barədə formalaşmış mənəvi dəyərlərdən doğan davranış qaydalarıdır. *(Əli Qədimov, Hüquq nəzəriyyəsi. “Qanun” nəşriyyatı, 2025, s.88).*

3.11. Göründüyü kimi **əxlaq normaları** müvafiq mənəvi meyarlara (“yaxşı”, “pis”, “ədalətli”, “ədalətsiz” və s.) dair cəmiyyətin baxışları kimi başa düşülür. Ona görə hər hansı davranışın əxlaq normaları ilə uyğunluğunu qiymətləndirən şəxs, belə qiymətləndirməni öz subyektiv əxlaq baxışları əsasında deyil, əxlaqa dair cəmiyyətdə formalaşmış obyektiv baxışlar əsasında qiymətləndirməlidir. Bununla belə nəzərə alınmalıdır ki, şəxs obyektiv əxlaq baxışları əsasında mühakimə yürüdərkən, onun öz subyektiv baxışlarından təsirlənməsi qaçılmazdır. Bu səbəbdən, obyektivliyin təmin edilməsi üçün, düşünürük ki, şərh olunan maddədə təsbit olunan inzibati xətaya dair işə baxan səlahiyyətli orqan (vəzifəli şəxs) və ya məhkəmə müvafiq ifadələrin əxlaqsız məzmunda olmasının müəyyənləşdirilməsi üçün **linqvistik ekspertiza** təyin etməlidir. Ekspert qarşısında bir qayda olaraq aşağıdakı suallar qoyulur: Müvafiq sözlər hansı mənanı ifadə edir? Müvafiq sözlər, onların ünvanlandığı obyekt, səsləndirildiyi kontekst və ifadə tərzi (habelə iş üzrə sair diqqətəlayiq amillər) nəzərə alınmaqla, əxlaqsız məzmunda başa düşülə bilərmi?

[11] Məsumə Məlikova, Hüquq nəzəriyyəsi. Dərslik., “Elm və təhsil”, 2023, s. 71.

3.12. Səsləndirilən belə söz və ya ifadələrin obyektiv olaraq əxlaq normalarına zidd olması **açıq-aşkar olduğu hallarda** (məsələn, ağır söyüş halında) ekspertizanın təyin edilməsi zəruri hesab edilmir.[12]

3.13. **Xarici dildə** səsləndirilən əxlaqsız söz və ifadələrin şərh olunan maddənin tərkibini yaradıb-yaratması ilə bağlı qeyd edilməlidir ki, ifadənin hansı dildə səsləndirilməsi deyil, onun məzmununun (tərcüməsinin) əxlaq normalarına zidd olub-olmaması həlledici meyar kimi çıxış edir. Bu baxımdan Azərbaycan cəmiyyətində bərqərar olmuş əxlaq normalarını pozan xarici söz və ya ifadələr İXM-in 510.2-ci maddəsinin tərkibini yarada bilər. Belə hallarda ilkin olaraq müvafiq xarici dili bilən mütəxəssisin cəlb edilməsi zəruridir və mübahisəli ifadələr onun tərəfindən dəqiq tərcümə olunmalıdır. Tərcümədən sonra müvafiq ifadələrin əxlaq normalarını pozub-pozmaması bu Şərhin 3.11–3.12-ci bəndinə uyğun olaraq hakim və ya səlahiyyətli orqanın (vəzifəli şəxsin) özü tərəfindən müəyyən edilməli və ya məsələnin aydınlaşdırılması üçün əlavə olaraq linqvistik ekspertiza təyin edilərək müvafiq rəy alınmalıdır.

3.14. ***Əxlaqsız məzmun təəssüratı yaradan jestlərin edilməsi***. İzahlı Lüğətdə "jest" anlayışı *"əl qol hərəkəti"* və ya *"nəzərə çarpdırmaq üçün görülən iş, edilən hərəkət"* kimi izah olunur.[13] Hüquq doktrinasında da şəxsin şərəf və ləyaqətini alçaldan təhqirin "*bədən hərəkətləri*" vasitəsilə ifadə edilməsinin mümkünlüyü təsbit edilmişdir.[14] Odur ki, İXM-nin 510.2-ci maddəsinin məzmunu baxımından "**əxlaqsız məzmun təəssüratı yaradan jestlərin edilməsi**" dedikdə, ictimai mənəviyyatı təhqir edən və cəmiyyətə açıqca hörmətsizlik ifadə edən tərzdə cəmiyyət tərəfindən qəbul olunmuş əxlaq normalarını pozan, cəmiyyətin qəbul etdiyi mənəvi-əxlaqi dəyərləri alçaldan, ədəbsiz, tərbiyəsiz, nalayiq və ya söyüş məzmunlu mənanın ötürülməsi üçün istifadə olunan bədən hərəkətləri, o cümlədən əl-qol hərəkətləri başa düşülür.

3.15. Həmçinin nəzərə alınmalıdır ki, hər hansı jestin əxlaqsız məzmun daşıyıb-daşımaması universal və sabit meyarlarla müəyyən edilə bilməz. Bu qiymətləndirmə birbaşa olaraq konkret cəmiyyətin sosial-mədəni dəyərlərindən, tarixi inkişaf xüsusiyyətlərindən və mövcud əxlaqi normalar sistemindən asılıdır. Buna görə də, belə halların hüquqi qiymətləndirilməsi zamanı bütün hallarda vahid yanaşmanın tətbiq edilməsi, hesab edirik ki, məqsədəuyğun deyil və hər bir iş üzrə jestlərin mənası onların aid olduğu sosial və mədəni kontekst nəzərə alınmaqla araşdırılmalıdır. [15] Müvafiq araşdırmanın aparılması zamanı **linqvistik ekspertizanın** təyin edilməsi və ya aidiyyəti sahədə mütəxəssislərin

---

[12] Bənzər yanaşma "Şəxsiyyət hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2025-ci il 24 dekabr tarixli 20 nömrəli Qərarında da təsbit edilir. Bununla əlaqədar bax. Qərarın 2.2.16-cı bəndinə, s. 6. https://supremecourt.gov.az/storage/pages/2308/sexsiyyet-huquqlarinin-mudafiesine-dair-plenum-qerari.pdf

[13] *İbid.,* səh. 623.

[14] F.Y.Səməndərov, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası. Bakı, 2021, s.529.

[15] Jestlərin bilmədiyimiz mənaları (mətbuatda dərc olunmuş məqalə). https://qafqazinfo.az/news/detail/jestlerin-bilmediyimiz-menalari-xaricde-diqqetli-olaq-117859

(məsələn, mədəniyyatşünas alimlərin, semiotika[16] və ya kinesika[17] mütəxəssislərinin) cəlb edilməsi işin obyektiv həlli baxımından əhəmiyyətli ola bilər. Müvafiq ekspert və ya mütəxəssis qarşısında bir qayda olaraq aşağıdakı suallar qoyulur: Müvafiq jestin hər hansı mənası varmı, əgər varsa həmin məna nədir? Müvafiq jest onun ünvanlandığı obyekt, həmçinin edildiyi sosial və mədəni kontekst (habelə iş üzrə sair diqqətəlayiq amillər) nəzərə alınmaqla, əxlaqsız məzmunda başa düşülə bilərmi?

3.16. ***İnsan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada nümayiş etdirilməsi***. Şərh olunan maddənin obyektiv cəhətinə daxil olan bu əməlin aydınlaşdırılması üçün ilk növbədə iki məsələnin ardıcıl qaydada izahı məqsədəuyğun hesab edilir: *(i)* insan bədəninin hissələri dedikdə bədənin hansı hissələrinin nəzərdə tutulması; *(ii)* bədənin belə hissələrinin nümayiş etdirilməsinin hansı halda əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd hesab edilməsi.

3.17. Düşünürük ki, 510.2-ci maddənin İXM-ə daxil edilməsinin məqsədləri (bax bu Şərhin 2-ci hissəsinə) nəzərə alınmaqla, şərh olunan maddədə "**insan bədəninin hissələri**" **dedikdə** bədənin istənilən hissəsi deyil, geniş auditoriyada **seksual maraq** oyada bilən hissələri (məsələn, cinsiyyət orqanları və ya onların bir hissəsi, qadınının sinə nahiyəsi və s.) nəzərdə tutulur. Baş, boyun, burun, qulaq, əl, barmaq və sair bu kimi bədən hissələri və nahiyələri geniş tamaşaçı kütləsində seksual maraq yaratmadığından şərh olunan maddənin əhatə dairəsinə daxil deyil və onların nümayişi (formasından asılı olmayaraq) inzibati məsuliyyətə səbəb olmayacaq.

3.18. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsinin I hissəsi (fikir və söz azadlığı), Avropa Konvensiyasının 10-cu maddəsinin, Avropa Məhkəməsinin ifadə azadlığı ilə bağlı aidiyyəti presedentlərinin[18] təhlili, həmçinin şərh edilən normanın məqsədləri nəzərə alınaraq, hesab edilir ki, bədənin müvafiq hissələrinin nümayişinin **əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd** olduğunun müəyyən edilməsi aşağıdakı **meyarlar** əsasında həyata keçirilməlidir:

- görüntüdəki diqqətinin əsasən nəyə yönəldilməsi;

---

[16] Semiotika işarə və simvolların öyrənilməsi və onların mənasını necə çatdırılması ilə məşğul olan elm sahəsidir. *Daha ətraflı bax:* A.A.Dadaşzadə (rəyçilər: filol.ü.f.d, dos, M.Ə.Hacıyev, filol.ü.f.dos., G.T.İsrafilova). Dil işarələrinin praqmatik qiymətləndirilməsi (məqalə). Bakı Qızlar Universiteti ."Elmi əsərlər" jurnalı. Cild 14 №1 2023(53), səh.124-125. https://www.anl.az/down/meqale/elmi_eser_bqu/2023/1/23(meqale).pdf

[17] Kinesika insanlar arasında ünsiyyətə xidmət edən əl-qol, bədən hərəkətlərinin (jestlərin) məcmusunu öyrənən elmdir. *Bax:* M.İ.Adilov, Z.N.Verdiyeva, F.M.Ağayeva. İzahlı dilçilik terminləri lüğəti. Bakı, "Elm və təhsil", 2020, səh.260. *həmçinin bax:* S.Sadıqova, N.Hüseynova, S.Novruzova, Ş.Həsənli-Qəribova. "İzahlı dilçilik terminlər lüğəti".Bakı, "Elm", 2019. səh, 433. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000851684

[18] *Bax:* Bouton Fransaya qarşı iş üzrə Qərar *(Bouton v. France)* , § 30. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-220275%22]}
*Həmçinin bax:* Gough Birləşmiş Krallığa iş üzrə Qərar *(Gough v. the United Kingdom),* § 150.

- görüntüdəki şəxsin üzərindəki geyim tərzinin cəmiyyətdə yayılma dərəcəsi;
- bədən hissələrinin göstərildiyi mühit;
- bədən hissələrinin göstərilməsinin məqsədi.

3.19. **Görüntüdəki diqqətinin əsasən nəyə yönəldilməsi.** İlk növbədə nəzərə alınmalıdır ki, yayımlanan görüntünün mövzusundan asılı olmayaraq, görüntüdə çəkilən şəxs tərəfindən tamaşaçıların diqqətinin xüsusi olaraq seksual maraq yaradan bədən hissələrinə yönəldilməsi (məsələn, diqqətin yönədilməsi üçün müvafiq bədən hissələrinin iri planda çəkilməsi, görüntüdəki şəxsin onlara xüsusi formada toxunması və s.) əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd hesab oluna bilər. Bununla belə, yekun tövsifin verilməsi üçün müvafiq əməl digər meyarlar baxımından da qiymətləndirilməlidir.

3.20. **Müvafiq görüntüdəki şəxsin üzərindəki geyim tərzinin cəmiyyətdə yayılma dərəcəsi.** İnsan bədəni hissələrinin nümayişinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd olub-olmadığının müəyyənləşdirilməsi zamanı, müvafiq görüntüdəki şəxsin bədən hissələrinin görünməsinə səbəb olan geyim tərzinin cəmiyyətdə nə dərəcədə geniş yayıldığı nəzərə alınmalıdır. Belə ki, müvafiq geyim tərzi cəmiyyətdə olduqca geniş yayılıbsa, internet informasiya ehtiyatları və informasiya-telekommunikasiya şəbəkələrinin milli seqmentində (Azərbaycan vətəndaşlarının sosial şəbəkə hesablarındakı video və şəkillərdə) tez-tez rast gəlinirsə, yaxud müvafiq tərzdə olan geyimlərə cəmiyyətin, o cümlədən sosial şəbəkə istifadəçilərinin rəylərindən kütləvi etiraz olunduğu müəyyən edilmirsə, bu hal müvafiq geyim tərzinin ictimai qəbul dərəcəsinin kifayət qədər yüksək olduğunu göstərir və belə geyimlər ayrı-ayrı bədən hissələrinin görünməsinə səbəb olmasına baxmayaraq əxlaq normalarına və milli-mənəvi dəyərlərə uyğun hesab edilməlidir. Məsələn, **qısa ətəklər, dekolte paltarlar**, bədənin intim nahiyələrini önə çıxaran **sıx (dar) paltarlar** və digər oxşar geyim üslubları cəmiyyətdə geniş formada mütəmadi olaraq istifadə olunur və sosial baxımdan qəbul edilirsə, belə geyimlər birbaşa əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd hesab edilməməlidir.

3.21. **Bədən hissələrinin göstərildiyi mühit.** İnsan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada nümayiş etdirilməsi əməlinin qiymətləndirilməsi zamanı növbəti vacib meyar bədən hissələrinin nümayiş etdirildiyi mühitdir. Belə ki, bir sıra hallarda ayrı-ayrı mühitlərdə (məkanlarda) insanların bədən hissələrin, o cümlədən seksual maraq yaradan nahiyələrin görünməsi, həmçinin buna səbəb olan açıq tipli geyimlərdən istifadə edilməsi cəmiyyət tərəfindən normal və qəbul edilən hesab edilir. Məsələn, **çimərlik zonalarında** bədənin əksər hissəsini açıq göstərən çimərlik geyimlərində çəkilmiş, yaxud funksionallığın (rahat hərəkət, elastiklik və s.) təmini üçün ayrı-ayrı bədən nahiyələrini açıq göstərən və ya bədən formasını vurğulayan **idman geyimlərini** tələb edən idman növləri (məsələn, atletika, üzgüçülük, voleybol, tennis, bədii gimnastika və s.) üzrə məşqlərin və ya yarışların təşkil edildiyi yerlərdə çəkilmiş

görüntülər, əgər həmin mühitə uyğun və təbii formada təqdim olunursa, əxlaq normalarına zidd hesab edilməməlidir. Lakin belə görüntülərdə məqsəd diqqəti qəsdən intim nahiyələrə yönəltmək və ictimaiyyətdə seksual maraq yaratmaq olarsa, bu cür hərəkətlər artıq şərh olunan maddədə nəzərdə tutulan inzibati xətanın tərkibini yarada bilər.

3.22. **Bədən hissələrinin göstərilməsinin məqsədi.** Müvafiq əməllərə hüquqi qiymət verilərkən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində bədən hissələrinin hansı məqsədlə nümayiş etdirildiyi də əməlin tövsifinə təsir göstərə bilər. Belə ki, bədən hissələrinin nümayişi bəzi konkret məqsədlərlə edildikdə cəmiyyət tərəfindən buna daha dözümlü yanaşılır və belə nümayişin ictimai qəbul dərəcəsi daha yüksək olur.

3.23. Məsələn, insan bədəninin hissələrinin bəzi **kommersiya məqsədlərindən** irəli gələrək nümayiş etdirilməsi şərh olunan maddənin tətbiqini istisna edən hal kimi nəzərdən keçirilə bilər. Məsələn, alt paltarların reklamı zamanı məqsəd ictimaiyyətin diqqətini intim nahiyələrə yönəltməklə seksual maraq yaratmaq deyil, diqqəti məhz reklam obyekti olan paltarlara cəlb etmək və onunla bağlı maraq formalaşdırmaqdırsa şərh olunan maddə üzrə inzibati xəta tərkibi yaranmayacaq.

3.24. Eynilə, insan bədəninin ayrı-ayrı hissələrinin **elm, tədris, jurnalistika** yaxud **incəsənət fəaliyyətin həyata keçirilməsi məqsədləri** üçün internet məkanında, o cümlədən sosial şəbəkələrdə nümayişi şərh olunan maddənin tətbiq dairəsinə daxil edilməməlidir. Məsələn, insan bədəninin ayrı-ayrı hissələrinin rəsm və heykəltəraşlıq tədrisində bədən quruluşunun (əzələ, proporsiya, anatomiya) öyrədilməsi məqsədilə təşkil olunmuş onlayn kurslarda geyimsiz naturaçıların nümayişi və ya bədii yaradıcılıq məqsədləri ilə (məsələn, bədii filmlərdə, teatr tamaşalarında olduğu kimi) nümayişi şərh olunan maddənin tətbiq dairəsinə daxil edilməməlidir. Belə hallarda insan bədəninin hissələrinin nümayişi seksual mahiyyət daşımayaraq, ictimai mənəviyyatı təhqir və cəmiyyətə açıqca hörmətsizlik ifadə etməyərək yalnız bədii-estetik və yaradıcılıq funksiyalarını yerinə yetirir.

3.25. Həmçinin, internet informasiya ehtiyatında bədən hissələrinin nümayiş etdirilməsi açıq-aşkar **ifadə azadlığı ilə qorunan fikirlərin (mesajların) ötürülməsi məqsədi** daşıdıqda (məsələn, siyasi, dini və s.), şərh olunan maddənin tətbiqindən çəkinmək məqsədəuyğun hesab edilir. [19] Belə hallar, bir qayda olaraq, Avropa Konvensiyasının 10-cu maddəsinin 2-ci hissəsi ilə təminat altına alınan ifadə azadlığı çərçivəsində qiymətləndirilərək məsuliyyətə səbəb olmamalıdır.

---

[19] Avropa Məhkəməsinin mövqeyinə görə ictimai yerdə bədən hissələrinin çılpaq nümayişi ifadə azadlığının bir forması kimi qiymətləndirilə bilər. *Məsələn, bax* (i) Gough Birləşmiş Krallığa iş üzrə Qərar *(Gough v. the United Kingdom),* § 150; (ii) Bouton Fransaya qarşı iş üzrə Qərar *(Bouton v. France),* § 30.

3.26. Hesab edirik ki, yuxarıdakı 3.22-3.25-ci bəndlərdə nümayişin "məqsədləri" ilə bağlı aparılmış təhlillər, həmçinin əxlaqsız ifadələrin səsləndirilməsi və ya belə məzmun yaradan jestlərin edilməsi hərəkətlərinə münasibətdə *mutatis mutandis* (yəni, həmin hərəkətlərin xarakteri və mahiyyətinə uyğun olan dərəcədə) tətbiq edilə bilər.

3.27. **Əxlaq normaları və milli-mənəvi dəyərlər.** Maddənin dispozisiyasında istifadə olunan "əxlaq normaları" ifadəsi bu Şərhin 3.5 – 3.11-ci bəndlərində təhlil edilmişdir. "**Milli-mənəvi dəyərlər**" ifadəsi ilə bağlı qeyd edilməlidir ki, Azərbaycan dilində geniş istifadə olunan bu termin xarici mənbələrdə, həmçinin Azərbaycan mənbələrinin xarici dillərə tərcümə olunmuş mətnlərində, bir qayda olaraq, "milli-əxlaqi dəyərlər" ("*national and moral values*"[20], "*национально-нравственные ценности*"[21]) mənasında ifadə olunur. Eyni zamanda, qeyd olunan terminlə bağlı akademik ədəbiyyatda[22] aparılmış təhlillərdən də görünür ki, "milli-mənəvi dəyərlər" anlayışının mərkəzində məhz "əxlaq normaları" dayanır və sözügedən termin "**milli-əxlaqi dəyərlər**" mahiyyətini ifadə edir. Bu baxımdan hesab edirik ki, "milli-mənəvi dəyərlər" ifadəsi şərh edilən normanın kontekstində "əxlaq normaları" ilə əsasən üst-üstə düşür və bu ifadənin normaya daxil edilməsinin əsas hüquqi əhəmiyyəti müvafiq hərəkətlərin ümumbəşəri və ya regional dəyərlər (məsələn, Avropa dəyərləri) baxımından deyil, məhz Azərbaycan cəmiyyətində təşəkkül tapmış milli əxlaq normalarından çıxış etməklə qiymətləndirilməli olduğunu vurğulamaqdır.

3.28. Qeyd olunanlarla yanaşı hesab edirik ki, şərh olunan maddə ilə bağlı işə baxan səlahiyyətli orqan (vəzifəli şəxs) və ya məhkəmə müvafiq görüntülərdəki insan bədəninin hissələrinin nümayiş etdirilməsinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd hesab olunub-olunmamasını **mütəxəssis məsləhətindən** (məsələn, moda mütəxəssisləri, peşəkar geyim stilistlərinin rəyindən) faydalana bilər.

3.29. Həmçinin nəzərə alınmalıdır ki, şərh olunan maddədə təsbit olunan inzibati xətanın obyektiv cəhətini təşkil edən hərəkətlər yalnız **kütləvi nümayiş etdirilməklə internet**

---

[20] *Məsələn, bax* Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin rəsmi veb-saytında dərc olunmuş "Milli-mənəvi dəyərlərin böyük təəsübkeşi" məqaləsinin ingilis dilinə tərcümə olunmuş mətninə ("*A great supporter of national and moral values*"). https://scara.gov.az/en/xeber/media/xeberler/milli-menevi-deyerlerin-boyuk-teessubkesi-1.

[21] *Məsələn, bax* Аскерова П.С., Национально-нравственные ценности в духовной жизни Азербайджана. Науковий вісник Міжнародного гуманітарного університету. Серія: Філологія, 2016, №24, том 2. https://www.vestnik-philology.mgu.od.ua/archive/v24/part_2/4.pdf.

*Həmçinin, bax* Azərbaycan Milli Elmlər Akademiyasının Açıq Jurnallar Sistemində (AMEA Dərgi Parkı) "Nizami Gəncəvi yaradıcılığında mili-mənəvi dəyərlər" məqaləsinin xülasəsinin ingilis dilinə tərcümə olunmuş mətninə *("National and moral values in Nizami Ganjavi's creativity).* https://dergipark.anas.az/index.php/es/article/view/965/948

[22] *Məsələn, bax* Vüqar Rəhimzadə. "Milli mənəvi dəyərlərin qorunmasında Heydər Əliyevin rolu: medianın dəstəyi və qiymətləndirmə prizmasında" (məqalə). "Strateji təhlil" jurnalı, say 3-4 (21-22) 2017. səh.235. https://elibrary.az/docs/jurnal/jrn2017_1048.pdf
*həmçinin bax* Şahnaz Abdullayeva. "Ailə milli-mənəvi dəyər kimi" (məqalə). "Akademik tarih ve düşünce" dərgisi.səh.1123. https://dergipark.org.tr/tr/download/article-file/3874549

**informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində** edildikdə İXM-nin 510.2-ci maddəsi üzrə inzibati xəta tərkibi yaradır.

3.30. ***İnternet informasiya ehtiyatı*** dedikdə internet şəbəkəsində yaradılan, informasiyanın yayılması üçün istifadə olunan, müraciət edilməsi üçün domen adına və sahibi tərəfindən müəyyənləşdirilmiş digər işarələnməyə malik olan informasiya ehtiyatı başa düşülür [23]. Məsələn, müxtəlif vebsaytlar, sosial şəbəkələr və digər ümumi istifadə üçün nəzərdə tutulan platformalar (Instagram, Facebook, YouTube, TikTok, WhatsApp, Telegram və s.), forumlar, podkastlar, bloqlar və s. internet informasiya ehtiyatına aid edilə bilər.

3.31. ***İnformasiya-telekommunikasiya şəbəkəsi*** qanunvericilikdə birbaşa ayrıca anlayış kimi təsbit edilməsə də, onun məzmunu "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.1, 1.0.2 və 1.0.3-cü maddələrində nəzərdə tutulmuş *"telekommunikasiya", "telekommunikasiya şəbəkəsi"* və *"ümumistifadəli telekommunikasiya şəbəkəsi"* anlayışlarının sistemli təhlili əsasında müəyyən edilə bilər. Belə ki, həmin normalardan aydın olur ki, telekommunikasiya elektrik və ya elektromaqnit rabitə vasitələri ilə siqnalın, səsin və təsvirin məsafədən ötürülməsini əhatə edir və bu proses müxtəlif texniki vasitələrin vahid sistemdə birləşməsi ilə həyata keçirilir. Bu baxımdan, informasiya-telekommunikasiya şəbəkəsi dedikdə yalnız internet mühiti deyil, eyni zamanda radio və televiziya vasitəsilə informasiyanın ötürülməsi də daxil olmaqla, ümumilikdə informasiyanın məsafədən ötürülməsini təmin edən bütün texnoloji şəbəkələr vasitəsilə informasiyanın ötürülməsi başa düşülməlidir. Odur ki, şərh olunan maddədə təsbit edilən inzibati xəta yalnız sosial şəbəkə platformalarında deyil, həm də radio və televiziya verilişləri vasitəsilə kütləvi nümayiş etdirildikdə də inzibati məsuliyyətə səbəb olur.

3.32. İctimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin **kütləvi nümayiş etdirilməsi** dedikdə isə**,** şərh olunan maddənin obyektiv cəhətinə aid edilən hərəkətlərin internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində qeyri-müəyyən şəxslər dairəsi üçün açıq, texniki baxımdan əlçatan, hər kəs tərəfindən sərbəst baxıla bilən formada edilməsi başa düşülür.

*Subyekt*

3.33. Şərh olunan maddədə təsbit olunan inzibati xətanın subyekti internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən *müvafiq hərəkətləri bilavasitə icra etmiş* 16 yaşına çatmış anlaqlı fiziki şəxsdir.

[23] "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinin onuncu abzası. https://e-qanun.az/framework/3525

3.34. Qeyd edilməlidir ki, İXM-nin 510.2-ci maddəsinin mətninin birbaşa mənasından irəli gələrək hesab edilir ki, yalnız müvafiq **hərəkətləri bilavasitə icra etmiş** şəxs inzibati məsuliyyətə cəlb oluna bilər. Belə ki, oxşar təbiətli inzibati xəta və cinayət tərkiblərinin dispozisiyasında müəyyən məzmunlu məlumatların, o cümlədən görüntülərin üçüncü şəxslər tərəfindən digər şəxslərə bildirilməsi, göstərilməsi və ya paylaşılması ilə bağlı qadağa nəzərdə tutulursa, qanunverici tərəfindən bir qayda olaraq "yayılma", "yayma" və ya "yayımlama" terminlərindən istifadə olunur (məsələn, İXM-nin 171, 213.0.4, 376, 381, 388, 388-1-ci və sair maddələri; CM-nin 156.1, 171-1.1, 202.2, 273-1.1-ci və sair maddələri). Odur ki, İXM-nin 510.2-ci maddəsində qeyd olunan terminlər nəzərdə tutulmadığı üçün aidiyyəti hərəkətlər də normanın dispozisiyası ilə əhatə olunmur.

3.35. Bu baxımdan şərh olunan maddənin obyektiv cəhətinə daxil olan hərəkətləri yalnız *bilavasitə* icra edən, yəni müvafiq internet məkanında kütləvi nümayiş etdirməklə əxlaqsız ifadələri bilavasitə səsləndirən, əxlaqsız məzmun təəssüratı yaradan jestləri bilavasitə edən və ya öz bədən hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada bilavasitə göstərən şəxs (məsələn, internet məkanında canlı yayım zamanı müvafiq hərəkətləri edən, yaxud belə hərəkətləri əks etdirən özünə məxsus görüntüləri və ya səsyazılarını internet məkanında yerləşdirən şəxs) inzibati məsuliyyətə cəlb oluna bilər.

3.36. Həmçinin qeyd edilməlidir ki, müvafiq hərəkətləri əks etdirən görüntüləri (səsyazılarını) həmin görüntüdəki (səsyazısındakı) **şəxsin razılığı ilə üçüncü şəxs tərəfindən** internet məkanında yerləşdirilməsinə görə də məhz görüntüdəki (səsyazısındakı) şəxs inzibati məsuliyyətə cəlb olunacaq, çünki bu halda da müvafiq qadağan olunmuş hərəkətlərin internet məkanında nümayiş etdirilməsi onun qəsdi və niyyəti ilə əhatə olunmuş hesab edilir. Bu halda, **görüntüləri internet məkanında yerləşdirmiş üçüncü şəxs**, habelə həmin görüntüləri internet məkanında **paylaşan digər şəxslər** məsuliyyətə cəlb edilməyəcək (çünki maddənin dispozisiyasında müvafiq məlumatların yayılmasına görə məsuliyyət nəzərdə tutulmayıb). Görüntüdəki şəxsin razılığı olmadan həmin görüntüləri yayan üçüncü şəxslər, işin hallarından asılı olaraq, digər növ hüquqi məsuliyyətə cəlb oluna bilər, məsələn, şəxsi həyat toxunulmazlığının pozuntusuna görə cinayət məsuliyyətinə (CM-nin 156-cı maddəsinə əsasən) və ya şəxsiyyət hüququnun pozuntusu ilə əlaqədar ümumi deliktin törədilməsinə görə mülki məsuliyyətə (MM-nin 1096 və 1097-ci maddələrinə əsasən).

<u>*Subyektiv cəhət*</u>

3.37. Şərh olunan maddənin dispozisiyasında nəzərdə tutulan hərəkətlər yalnız **qəsdən** törədildiyi halda inzibati məsuliyyətə səbəb olur. Belə ki, təqsirkar internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən

hərəkətlər etdiyini dərk edir, onun zərərli nəticələrini qabaqcadan görür və bunları arzu edir, yaxud belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir.

**4. İnzibati xətanın xarici ölkə ərazisində törədilməsi**

4.1. Qeyd olunmalıdır ki, İXM-də inzibati xətalar qanunvericiliyinin məkana görə qüvvəsi ilə bağlı tənzimləmə nəzərdə tutulmamışdır. Bununla belə, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 88.1-ci maddəsinə əsasən normativ hüquqi aktlar *Azərbaycan Respublikasının bütün ərazisində* məcburi qüvvəyə malikdir. Odur ki, şərh olunan maddənin dispozisiyasında nəzərdə tutulan hərəkətlərin xarici ölkə ərazisində törədilməsi (yəni, əxlaqsız ifadələrin səsləndirilməsi və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsi, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsi xarici ölkənin ərazisindən edilərsə) İXM üzrə inzibati məsuliyyətə səbəb olmur.

**5. Şərh olunan maddədə nəzərdə tutulan inzibati xətaya dair işə baxmaq səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər)**

5.1. İXM-in 43.1-ci maddəsinə uyğun olaraq İXM-in 510-cu maddəsində nəzərdə tutulan inzibati xətalara dair işlərə müvafiq **birinci instansiya məhkəmələri** tərəfindən baxılır. Bundan başqa, İnzibati Xətalar Məcəlləsinin 43.3-cü maddəsinin tələblərinə uyğun olaraq İXM-in 510-cu maddəsində nəzərdə tutulan inzibati xətaya dair işlərə baxmaq səlahiyyəti eyni zamanda **daxili işlər orqanlarına** verilmişdir.[24]

5.2. Konkret inzibati xətaya dair işə **hansı hallarda məhkəmə** tərəfindən, **hansı hallarda isə daxili işlər orqanları** tərəfindən baxılmalı olduğu məsələsinə gəldikdə isə qeyd edilməlidir ki, İXM-in 43.3-cü maddəsinə əsasən həmin Məcəllənin 43.1-ci maddəsində göstərilən inzibati xətalar haqqında işlərə baxmaq hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmçinin səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) aid edildikdə, icraatında inzibati xətalar haqqında iş olan səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətanın xarakterini, inzibati xəta törədənin şəxsiyyətini, onun təqsirinin dərəcəsini, məsuliyyəti ağırlaşdıran halların və müsadirə olunmalı malların mövcudluğunu nəzərə alaraq, şəxs barəsində müvafiq maddənin sanksiyasında nəzərdə tutulan xəbərdarlıq və ya cərimə inzibati tənbeh tədbirlərindən daha ağır tənbeh tədbirinin (məsələn, bu halda inzibati həbs) tətbiqi üçün əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir.

[24] “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli Fərmanı, 5.1-ci bənd. https://e-qanun.az/framework/32186

5.3. Yuxarıda qeyd edilən qaydanın tətbiqi həmçinin İXM-in 30-cu maddəsinin tələblərindən də irəli gəlir. Belə ki, həmin maddəyə əsasən inzibati həbs növündə inzibati tənbeh yalnız müstəsna hallarda İXM-in Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan inzibati xətaların ayrı-ayrı növlərinə görə hakim tərəfindən tətbiq edilir.

## ***510.3-cü maddənin şərhi***

**1. Maddədə təsbit olunan ağırlaşdırıcı hal**

1.1. Şərh olunan maddəyə əsasən İXM-in 510.2-ci maddəsində nəzərdə tutulmuş xətanın törədilməsinə inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən **bir il ərzində təkrar törədilməsinə görə** daha ağır inzibati məsuliyyət nəzərdə tutulur. Göründüyü kimi maddədə təsbit edilən ağırlaşdırıcı hal o zaman mövcud olacaq ki, şəxsin barəsində müvafiq əmələ inzibati tənbeh vermə haqqında qanuni qüvvəyə minmiş qərar olsun və həmin qərar qüvvəyə mindiyi gündən 1 il ərzində, o, eyni əməli yenidən (təkrar) törətsin.

1.2. İXM-də inzibati xəta haqqında iş üzrə **qərarın qüvvəyə minməsi** səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya hakimin qərarından şikayət və ya protestin verilib-verilməməsi ilə əlaqələndirilir (İXM-nin 138-ci maddəsi). Şərh edilən inzibati xəta üzrə inzibati tənbeh qərarından şikayət və ya protest müvafiq **qərarın surəti rəsmi qaydada verildiyi vaxtdan 10 gün müddətində** verilə bilər. Bu müddət ərzində şikayət verilməzsə, İXM-nin 510.2-ci maddəsi üzrə çıxarılmış inzibati tənbeh vermə haqqında qərar qüvvəyə minəcək.

1.3. Məsələn, “A” öz şəxsi sosial şəbəkə hesabında paylaşım edərək qeyri-müəyyən şəxslər dairəsinin izləyə bildiyi şəkildə, yəni kütləvi şəkildə bunu nümayiş etdirərək müxtəlif nalayiq ifadələr işlətdiyinə görə məhkəmə tərəfindən 10 fevral 2026-cı il tarixli inzibati xəta haqqında iş üzrə qərarla 500 manat məbləğində inzibati cərimə olunur. Barəsində inzibati tənbeh tətbiq edilmiş “A”-ya həmin qərarın surəti rəsmi qaydada 12 fevral 2026-cı il tarixində təqdim edilmişdir. Bu halda inzibati tənbeh qərarından “A” tərəfindən 22 fevral tarixinədək (həmin tarix daxil olmaqla) şikayət verilə bilər. Sözügedən şikayət verilməyəcəyi təqdirdə isə qərar 23 fevral 2026-cı il tarixindən qüvvəyə minəcək. Əgər şəxs həmin əməli 23 fevral 2027-ci il tarixinədək təkrar törətsə daha ağır inzibati tənbehə (İXM-nin 510.3-cü maddəsi üzrə inzibati məsuliyyətə) məruz qalacaq.

***<u>“Qeyd” hissəsinin şərhi</u>***

**1. İctimai mənəviyyata qarşı əməllərin inzibati və cinayət-hüquqi sərhədləri**

1.1. İXM-in 510-cu maddəsinin “Qeyd” hissəsinə əsasən həmin Məcəllənin 510.2-ci və 510.3-cü maddələrində göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

1.2. “Qeyd” hissənin məzmunundan görünür ki, ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsi həmin əməllərin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət məsuliyyətinə də səbəb ola bilər. Bununla belə həmin normada Cinayət Məcəlləsinin müvafiq maddələrinin konkret olaraq hansı maddələr olduğu göstərilmir.

1.3. Düşünürük ki, belə maddələr obyektiv cəhəti İXM-in 510.2-ci maddəsi ilə oxşarlıq təşkil edən, lakin daha yüksək ictimai təhlükəliliyi ilə səciyyələnən ictimai mənəviyyatı pozan, cəmiyyətə açıqcasına hörmətsizlik ifadə edən əməllərin təsbit olunduğu maddələrdir. Məsələn, Cinayət Məcəlləsinin 147-ci (böhtan), 148-ci (təhqir), 148-1-ci (internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə), 242-ci (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) maddələrini “Qeyd” hissədə nəzərdə tutulan müvafiq maddələrə aid etmək olar.

* * *